ODLAR YURDU UNİVERSİTETİ

KARYERA VƏ TƏCRÜBƏ MƏRKƏZİNİN

ƏSASNAMƏSİ

I. Ümumi müddəalar

1.1. Odlar Yurdu Universitetinin (OYU) Karyera və Təcrübə Mərkəzi (Mərkəz) Respublikanın əmək bazarı ehtiyaclarını qarşılamaq məqsədi ilə müxtəlif işəgötürən müəssisələr üçün zəruri olan uyğun ixtisaslı mütəxəssislərinin hazırlanmasını təmin etmək, məzun olan tələbələr haqqında məlumatların elektron bazada yerləşdirilməsi, tələbələr üçün texniki, təşkilati, konsultativ xidmətləri göstərmək, OYU-nun tədris proqramlarına uyğun olaraq müxtəlif özəl sektor obyektlərində istehsalat təcrübəsini təşkil etmək, beynəlxalq təcrübəyə uyğun olaraq tədrisin, elmin və istehsalatın əlaqələndirilməsini və tələbələrin/məzunların bacarıqlarının əmək bazarın tələbatına uyğunlaşdırılmasını təmin etmək üçün OYU-nun nəzdində müstəqil struktur vahidi kimi yaradılır və fəaliyyət göstərir;

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, OYU-nun Nizamnaməsini və bu Əsasnaməni əsas götürür;

1.3. Mərkəz bu əsasnamədə nəzərdə tutulan vəzifələri həyata keçirərkən OYU-nun digər struktur vahidləri, dövlət və icra orqanları, bələdiyyələr, kütləvi informasiya vasitələri, qeyri – hökümət təşkilatları, özəl şirkətləri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

II. Mərkəzin əsas məqsəd və fəaliyyətləri

2.1. Karyera və Təcrübə Mərkəzinin əsas məqsədi özəl sektor sənayesinin inkişaf etdirilməsinə, özəl sektor xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edəcək professional kadr personalının hazırlanmasını təmin etməkdir. Bunun üçün Mərkəz aşağıdakı fəaliyyətləri həyata keçirir:

2.1.1. Əmək bazarı və xüsusilə özəl sektoru tələbata uyğun peşəkar kadrlarla təmin etmək;

2.1.2. Universitet tələbələrini və məzunlarını yerli və beynəlxalq əmək bazarına rəqabətə dayanıqlı şəkildə inkişaf etdirmək, həmçinin tələbə və məzunlarına karyera inkişafı, planlama və tətbiqi prosesi haqqında məlumatlandırmaq;

2.1.3. Mütəmadi olaraq əmək yarmarkalarının, işgüzar təlim və seminarların, müxtəlif master klasların, şirkət ziyarətlərinin təşkili;

2.1.4. Tələbələr üçün təcrübə imkanlarının təyini və məzunların işlə təmin edilməsi üçün yerli biznes və qurumları ilə davamlı olaraq görüşlərin keçirilməsi;

2.1.5. Tələbələrin tədris proqramlarına uyğun olaraq müxtəlif özəl sektor obyektlərində istehsalat təcrübəsini təşkil etmək.

2.1.6. Tələbələr arasında yumşaq bacarıqların inkişafı üçün müvafiq yarış, simulyasiya və düşərgələrin təşkili (“Soft Skills Academy”, “Leadership Camp”, “MUN - BMT Modeli” və s.);

2.1.7. Beynəlxlaq təcrübəyə uyğun olaraq tədrisin, elmin və istehsalatın əlaqələndirilməsini və yaxınlaşdırılmasını təmin edən layihələr həyata keçirmək;

2.1.8. Universitetin müəllim və inzibati heyəti üçün əmək bazarı və tələbatlar barədə məlumatlandırma tədbirlərin keçirilməsi;

2.1.9. Universitetin müəllim və inzibati heyəti üçün, eləcə də tyutor və məzunlar üçün “Ömür boyu öyrənmək” (“Life Long Learning”) konsepsiaylı təlim və seminarların keçirilməsi

2.1.10. Universitetin müəllim heyəti üçün müvafiq sahələrinin peşəkar nümayəndələri ilə görüşlərin təşkili;

2.1.11. Mərkəzin fəaliyyətinin yüksəldilməsi məqsədilə təlimatlar və qaydalar hazırlamaq və yaymaq;

2.1.12. Ölkədaxili və beynəlxalq qrant imkanları araşdırmaq və müvafiq layihələrə müraciəti təmin etmək;

2.1.13. Tələbələr arasında məmnunluq və ehtiyaclar üzrə sorğularının keçirilməsi;

III. Mərkəzin funksiyaları

3.1. Universitet tələbələrinin (və məzunların) əmək bazarında tələb olunan əsas bacarıq və biliklərin düzgün formalaşdırılması üçün maarifləndirmə fəaliyyətlərini təşkil etmək;

3.2. Tələbə, məzunlardan və iş imkanlarından elektron məlumat bazasını formalaşdırmaq;

3.3. Əmək bazarında tələb olunan bacarıqlar üzrə peşəkar yerli və xarici təlimçilərlə əməkdaşlığı təmin etmək;

3.4. Beynəlxalq özəl sektor təşkilatları və təlim mərkəzləri ilə əməkdaşlıq etmək;

3.5. Əmək bazarında tələb olunan bacarıqların təlimi sahəsində müxtəlif səviyyəli təlimlər keçirmək, beynəlxalq miqyasda özəl sektora aid tədbirlərdə iştirak etmək;

3.6. Tələbələr üçün peşə yönümlü və karyera planlaması üzrə məsləhət xidmətini təşkil etmək;

3.7. Tələbələrin ölkə daxilində və xaricində təcrübə imkanlarını araşdırıb müraciət etməkdə dəstək göstərmək;

3.8. Bu əsasnamədən irəli gələn, qanunvericiliklə qadağan olunmayan digər vəzifələri icra etmək;

IV. Mərkəzin idarə olunması və öhdəlikləri

Mərkəzə rektor tərəfindən təyin edilən mərkəz rəhbəri rəhbərlik edir və növbəti vəzifələri icra edir:

4.1. Mərkəzin hədəf və məqsədlərinin təyin edilməsi;

4.2. Mərkəzin strategiya və fəaliyyət planının hazırlanması;

4.3. Universitet rəhbərliyinə (rektor, prorektor səviyyəsində) yarım illik və illik hesabatların verilməsi;

4.4. Şirkət rəhbərləri ilə universitet rəhbərliyi arasında keçiriləcək görüşlərin təşkili;

4.5. Şirkətlər tərəfindən universitetə (təhsil və infrastruktura) investisiya və əlavə gəlir mənbələrinin təşviqi;

4.6. Aparıcı şirkətlərlə əməkdaşlıqların təmini, tələbələrin karyera və təcrübə imkanlarının artırılması;

4.7. Universitet tələbələri və məzunlarla karyeranın planlaşdırılması mövzularında mütəmadi görüşlərin təşkil olunması;

4.8. Fakültə rəhbərləri ilə mütəmadi görüş və uyğun təlimatlandırma;

4.9. Mərkəzə ayrılacaq büdcəyə nəzarət və strategiya planına uyğun olaraq xərcləmə;

4.10. Mərkəzin strukturuna uyğun olaraq işçi heyəti üçün təkliflərin hazırlanması və Universitet rəhbərliyinə təqdim edilməsi;

4.11. Mərkəz, müdir tərəfindən təyin və azad olunan, müqavilə əsasında və könüllü əsasla fəaliyyət göstərən işçilərə malikdir.

V. Mərkəzin fəaliyyətinin maliyyə əsasları

5.1. Mərkəzin fəaliyyətinin maliyyə əsasları Universitetin ayırdığı vəsaitlərdən formalaşır;

5.2. Mərkəz tərəfdaşlarla əməkdaşlıqdan və göstərdiyi layihə və xidmətlərdən əldə etdiyi gəlirləri müdirin təklifi ilə rektorun sərəncamı əsasında istifadə edir;

5.3. Sifariş əsasında özəl sektor nümayəndələri üçün “Life Long Learning” / “Ömür Boyu Öyrənmə” prinsipi ilə ödənişli təlimlərinin keçirilməsi

VI. Mərkəzin strukturu

6.1. Mərkəzin strukturu beş nəfərdən ibarətdir. Mərkəz müdiri, müdir müavini, üç mütəxəssis (kommunikasiya və təbliğat üzrə mütəxəssis, məlumat bazası üzrə mütəxəssis, sənaye ilə əməkdaşlıq üzrə mütəxəssis).

VII. Yekun müddəalar

7.1. Bu əsasnamə Universitetin Rektorluq tərəfindən qəbul edilir, rektor tərəfindən təsdiq edilir;

7.2. Bu əsasnaməyə əlavə və dəyişikliklər Rektorluq tərəfindən həyata keçirilir, rektor tərəfindən təsdiq edilir.